*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 noyabr 2019-cu il | № 85 (2402) | Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul edib.*



AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

- Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə Görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqeyimiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmlənməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır.

Dövlət başçılarının Aşqabad Zirvə Görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu, bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində, bu, Böyük Vətən müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər, təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.

Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini - neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə - orta hasilat səviyyəsindən iki dəfə yüksək həddə çatmışdı. Böyük Vətən müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə Görüşü zamanı mən belə bir məsələ də qaldırdım ki, MDB məkanında da, təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları var. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adam deyirdi ki, "Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür". Bu adam SMERŞ tərəfindən tutularaq uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıb. Bax, belə bir "xadim"ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyib. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu, nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni, əslində, bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, Böyük Vətən müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın.

Bugünkü iclas məsələsinə qayıdaraq, qeyd etmək istəyirəm ki, əlbəttə, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək edəcək. Bir daha xoş gəlmisiniz.

Sonra çıxış edən Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyqu dedi:

- Hörmətli cənab Prezident.

Bizimlə görüşmək üçün vaxt tapdığınıza görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Biz konkret olaraq Qələbənin gələcək yubileyi, ata və babalarımızın igidlikləri ilə bağlı xatirəni ümumi səylərimizlə qoruyub saxlamalı olmağımız barədə Sizin baxışlarınıza şərikik. Əlbəttə, o tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ölkəmiz üçün ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir. Bu gün bir tərəfdən tarixi yenidən yazmaq, digər tərəfdən qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq, bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, Birlik ölkələrindən olan hərbi kontingent Qızıl Meydanda Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər.

Bizim gündəliyə gəldikdə isə o, kifayət qədər genişdir. Əməkdaşlıq bizim birlikdə baxdığımız, təsdiq etdiyimiz planlar üzrə inkişaf edir. Burada xüsusi qeyd etmək istərdim ki, bu gün Rusiya beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazanıb, biz bu təcrübəni həmkarlarımızla bölüşməyə hazırıq. Bu, həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir. Son hadisələr, Soçidə aparılmış danışıqlar, əldə edilmiş razılaşmalar, bizim Prezident və Türkiyə Prezidenti tərəfindən imzalanmış Memorandum çətinliklə həyata keçirilir, lakin görürük ki, bu, sülhün bərqərar olması, Suriyanın suverenliyinin qorunub saxlanması üçün yeganə üsuldur.

# Bakıda MDB Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib

*Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının Bakıda keçirilən növbəti iclasının iştirakçıları oktyabrın 30-da Şəhidlər xiyabanını ziyarət ediblər.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclas iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən iclas iştirakçılarına Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Həmin gün Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib. İclasda Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu, Belarusun Müdafiə naziri general-leytenant Andrey Ravkov, Qazaxıstanın Müdafiə naziri general-mayor Nurlan Yermekbayev, Özbəkistanın Müdafiə naziri general-mayor Bahodir Kurbanov, Tacikistanın Müdafiə naziri general-polkovnik Mirzo Şerali, Qırğızıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Rayimberdi Duyşenbiyev və MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev iştirak ediblər.

Əvvəlcə iclas iştirakçıları xatirə şəkli çəkdiriblər.

İclasda çıxış edən Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirin ölkəmizdə keçirilməsindən məmnunluğunu ifadə edərək bildirib ki, xalqlarımızın dostluğu və ümumi irsi Azərbaycanda yüksək qiymətləndirilir. Nazir MDB Müdafiə Nazirləri Şurasının 77-ci iclasının Azərbaycanda keçirilməsi barədə qərarın qəbul olunmasına görə təşəkkürünü ifadə edib.

Tədbirin səmərəli keçəcəyinə və münasibətlərimizin gələcək inkişafına xidmət edəcəyinə əminliyini bildirən general-polkovnik Zakir Həsənov deyib: "Ümid edirik ki, bugünkü iclasımız ölkələrimiz arasında əməkdaşlığın inkişafına və dərinləşməsinə əlavə stimul verəcək, işbirliyinin yeni perspektivlərini müəyyən edəcək, habelə ölkələrimizdə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcək.

Fürsətdən istifadə edərək, iclasın təşkilində göstərdikləri səylərə və dəyərli yardıma görə MDB Müdafiə Nazirləri Şurasının Katibliyində çalışan həmkarlarımıza minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, Azərbaycanda olmaqdan məmnun qalacaq, Bakı ilə daha yaxından tanışlıq və bu gün ölkəmizdə baş verən müsbət dəyişiklikləri yaxından izləmək imkanı əldə edəcəksiniz. Ölkələrimiz naminə qarşıda duran məsuliyyətli və mühüm məsələlərin həllində hər kəsə uğurlar və səmərəli iş arzu edirəm".

Rusiyanın Müdafiə naziri ordu generalı Sergey Şoyqu iclasın yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb, göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev qeyd edib ki, təhlükəsizlik sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair prinsipial mövqe MDB Dövlət Başçıları Şurasının oktyabrın 11-də Aşqabadda və Hökumət Başçıları Şurasının oktyabrın 25-də Moskvada keçirilən iclaslarında bir daha təsdiqlənib.

O bildirib ki, MDB Müdafiə Nazirləri Şurasının fəaliyyəti çoxsahəli hərbi əməkdaşlığın inkişafına davamlı töhfələr verir. MDB ölkələrinin Müdafiə nazirlərinin hər bir görüşü üzv dövlətlərin hərbi əməkdaşlığın genişləndirilməsində ümumi maraqların olduğunu göstərir. Bugünkü görüşün gündəliyində 20-dən çox məsələnin yer alması buna nümunədir.

İcraiyyə Komitəsinin sədri MDB-yə sədrliyin gələn il Özbəkistana keçdiyini xatırladıb.

İclasda Şura üzvləri MDB ölkələrinin 2025-ci ilədək hərbi əməkdaşlıq konsepsiyalarını və MDB üzvü olan dövlətlərin Müdafiə nazirliklərinin 2025-ci ilədək radiasiya, kimyəvi və bioloji vəziyyətlə əlaqədar birgə monitorinq və qiymətləndirmə sisteminin hazırlanmasına dair əsas istiqamətləri nəzərdən keçiriblər.

Bundan başqa, iclasda "Beynəlxalq Ordu Oyunları-2019"un yekunları, MDB ölkələrinin silahlı qüvvələri üçün zabit kadrlarının hazırlanması, "Elmə başlanğıc" İnnovativ Elmi İdeyalar Beynəlxalq Festivalının keçirilməsi və İkinci Dünya müharibəsində Qələbənin 75 illiyinin qeyd edilməsinə hazırlıq məsələləri müzakirə olunub. Eyni zamanda, Birlik ölkələrinin 2019-cu ildə hərbi əməkdaşlığının inkişafının nəticələrinin yekunları müzakirə edilib.

İclasda MDB Müdafiə Nazirləri Şurasının 2020-ci il üçün İş Planı təsdiq edilib. Bundan başqa, iclasda cari hərbi əməkdaşlıq və qarşıda duran digər məsələlər də diqqət mərkəzində olub.




## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şirvanlı, Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

*Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il noyabrın 1-dək 104 milyon 234 min 547,81 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Müdafiə naziri Avropa İttifaqının xüsusi nümayəndəsi ilə görüşüb

*Oktyabrın 31-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhə xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədindəki hazırkı vəziyyətə dair fikir mübadiləsinin aparıldığı görüşdə general-polkovnik Zakir Həsənov beynəlxalq birlik tərəfindən tanınan Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalı altında olduğunu və danışıqlar prosesinin bu günədək nəticəsiz qaldığını bir daha xatırladıb.

Müdafiə naziri vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə əsas maneədir.

T.Klaar da öz növbəsində Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması üçün münaqişənin tez bir zamanda sülh yolu ilə həllinin vacibliyini qeyd edərək bildirib ki, Avropa İttifaqı bu istiqamətdə danışıqların davam etdirilməsinin tərəfdarıdır.

## "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün daha çox səy göstərəcəyik"

Türkiyə Xarici İşlər Nazirliyi və BMT-nin təşkilatçılığı ilə keçirilən 6-cı İstanbul Vasitəçilik Konfransının açılışından sonra jurnalistlərin suallarını cavablandıran Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ankara növbəti ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün daha çox səy göstərəcək.

AZƏRTAC timeturk.com saytına istinadla xəbər verir ki, türkiyəli nazir deyib: "Biz Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş torpaqları probleminin BMT Təhlükəsizlik Şurasının qətnamələri, Avropa Şurasının qərarları çərçivəsində həllinin tərəfdarıyıq və bu münaqişəsinin nizama salınması üçün növbəti ildə daha çox səy göstərəcəyik".

*Döyüş hazırlığı*

# "Torpaqlarımızı tezliklə işğaldan azad edəcəyik!"

"N" hərbi hissəsinin artilleriya divizionunun şəxsi heyətinin atış və atəşin idarə olunması məşqində gördüklərimiz də bir daha ordumuzun tərəqqisinin qaçılmaz və labüd olduğunu deməyə əsas verir. Zabit İsgəndər Mustafayev məşqin mahiyyətini izah edərək bildirdi ki, tabeliyində olan şəxsi heyətin tamamilə cəlb olunduğu məşq zamanı ilkin olaraq atəş mövqeləri və komanda-müşahidə məntəqələri yaradılır. Şərti düşmən mövqeyi müəyyənləşdirilir. Bundan sonra planlı və plandankənar atəş tapşırıqları icra olunur. Bu tapşırıqların tərkib



hissəsi olaraq arakəsmə, hərəkətli manea atəşləri, eyni zamanda, kalona atış tapşırığı yerinə yetirilir. Nəticədə normativlər yerinə yetirilir və məqbullar qəbul olunur.

Zabit Eldəniz İsmayılov qeyd etdi ki, bir vaxtlar xəyal kimi görünən, əlçatmaz hesab olunan texnologiyalar əsasında formalaşan Azərbaycan Ordusunun şəxsi heyətinin cəlb olunduğu istər məşq, istərsə də təlim artıq təəccüblü görünmür. "Bu gün Azərbaycan Ordusu keçid dövrünü başa vuraraq modernləşmə mərhələsinə qədəm qoyub. Həyata keçirilən çoxşaxəli islahatlar nəticəsində hərbi həyatın bütün sahələrində ciddi nailiyyətlərə zəmin yaradılıb ki, bu da hər birimizin həyatında nəzərəçarpacaq irəliləyişləri təmin edib."

"Gördüyünüz silah vasitəsilə yaxın və uzaq məsafələrdə yerləşən düşmən hədəflərini böyük bir ərazidə məhv edə bilərik", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yasin Alıyev söhbətə başladı. - Bu gün hərbi hissəmiz ən müasir texnika və silahlarla təchiz olunub. Eyni zamanda, qısa vaxt ərzində döyüş təyinatları rayonlarına vaxtında çıxışı təmin etmək məqsədi ilə top və qurğularımız yeni dartıcılarla təmin olunub. Bununla yanaşı, hərbi hissəmizin optik hesablama cihazları, radiolokasiya stansiyaları ilə təchiz edilməsi düşmənin hərəkətsiz və hərəkətli hədəflərini dəqiqliklə, qısa müddət ərzində aşkar edərək, atəşlə zərərvurma vasitələrinə ötürülməsinə imkan yaradıb. Bunun nəticəsidir ki, maksimal uzaqlıqda yerləşən düşmən hədəflərini hava şəraitindən asılı olmayaraq, gecə və gündüz məhv etmək imkanına malikik.

"Ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə müxtəlif qoşun növlərinin iştirakı ilə döyüş atışlı irimiqyaslı təlimlərin keçirilməsi şəxsi heyətin idarəçilik və döyüş qabiliyyətini artırıb", - deyə kapitan Natiq İsgəndərov top komandirinin sözünə qüvvət verdi. - 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyəti nümayiş etdirərək, on minlərlə kvadratmetr torpağımızı, o cümlədən mühüm əhəmiyyətli yüksəklikləri azad etdi və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir. Azərbaycan Ordusunun Aprel döyüşlərində və Günnüt zəfərində nümayiş etdirdiyi döyüş ruhu və qabiliyyəti orduda keçirilən islahatların yüksək göstəricisidir. Bu gün ordumuz Ali Baş Komandanımızın qarşımızda qoyduğu əsas vəzifələri - işğal altındakı torpaqlarımızın azad edilərək ərazi bütövlüyümüzün bərpa olunmasını, döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılmasını, qoşunların operativliyinin təmin edilməsini, silahlanmaya yeni qəbul edilən hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrənilməsi və tətbiqini, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsini həyata keçirməyə tam hazırdır."

Əsgər Nicat Qasımzadə qeyd etdi ki, hücuma və ya müdafiəyə hazırlıq zamanı top qurğusundan açılan sərrast atəş döyüşün taleyini həll edir. "Xidmət etdiyim artilleriya divizionunda gördüklərimin əsasında deyə bilərəm ki, Azərbaycan Ordusunun artilleriya bölmələri bu gün tarixi təməl üzərində yeni uğurlu nəticələr əldə etməyə, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar. Tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində artilleriya qüvvələrinin üzərinə böyük məsuliyyət düşür. Biz digər qoşun növlərinin səmərəli hücum strategiyasını təmin etməli, dəqiq koordinatlar əsasında düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və məntəqələrini, canlı qüvvəsini məhv etməliyik".

Əsgər Anar Qasımov bildirdi ki, onun əsas vəzifəsi düşmənin hədəflərini aşkar edib manqa komandirinə məlumat verməkdir. "Bundan sonra aşkar edilən hədəfin məhv edilməsi prosesi başlayır. Burada məqsəd piyada qüvvələrinə yardım etmək və şəxsi heyətimizə yönələn hədəfləri sıradan çıxarmaqdı. Hərbi xidmətə gəldiyimiz müddətdə top qurğusunun sirlərini öyrənir



və özümüzü ordumuzun qalibiyyət döyüşlərinə hazırlayırıq. Gördüyünüz məşğələlər mütəmadi keçirilir, nəticədə şəxsi heyətimiz təcrübə toplayır. Artıq istənilən döyüşün müqəddaratını həll edə biləcək əsgərlərimiz formalaşır. Şəxsi heyətimiz dəqiq koordinatlar əsasında istənilən hədəfi məhv etmək qabiliyyətinə malikdir. İnanırıq ki, torpaqlarımızı tezliklə işğaldan azad edəcəyik".

Əsgər Fuad Orucəliyev isə vurğuladı ki, müasir texnologiya əsasında qurulan ordunun tələblərinə uyğun olaraq şəxsi heyət formalaşır: "Məşqlərdə və təlimlərdə mənimsədiklərimizə, komandirlərimizdən öyrəndiklərimizə əsaslanaraq deyə bilərəm ki, Azərbaycan əsgəri dövlətimizin ərazilərinin qorunması işinin öhdəsindən layiqincə gəlir. Peşəkar zabitlərimizin sayəsində əsgərlərimiz top qurğusundan necə istifadə etməyi bilir və düşmənin zəif təchiz olunan dayaq nöqtələrindən məlumatlıdır".

"Ümumiyyətlə, bölməmizin əsas vəzifəsi düşmən üzərində atəş üstünlüyünün əldə edilməsində və saxlanılmasında iştirak etməkdi", - deyə əsgər Əlisahib Orucov söhbətə qoşuldu. - Komandirlərimizdən öyrəndiklərimizin və təcrübədə tətbiq etdiklərimizin əsasında deyə bilərəm ki, kütləviləşdirilmiş, cəmləşdirilmiş və sistematik atəş zərbələri nəticəsində düşmənin fəaliyyətini pozmaq fəaliyyətimizin əsas tərkib hissəsidir. İnanıram ki, bugünkü məşqdə də qarşıya qoyulan bu məqsədə nail olduq.

Əsgərlər Əlixeybər Qəmbərov və Azər Əhmədov isə bildirdilər ki, əsas məqsədləri məşqlər və təlimlər zamanı əldə etdikləri təcrübə sayəsində ehtimal edilən döyüşlərdə qələbə qazanmaqdı. Təcrübə göstərir ki, keçirilən məşqlər və təlimlər döyüş əməliyyatlarının uğurlu təşkilində mühüm rol oynayır. Bu şərəfli vəzifəni yerinə yetirən əsgər xüsusi təlim keçir, dərin hərbi biliklərə malik olur. Şəxsi heyətimizin vətənpərvərliyi, mənəvi-psixoloji və fiziki hazırlığı kifayət qədərdir.

**Mayor Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", fotolar Coşqun CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Cəsarətləri ilə qəhrəmanlıq tarixi yazanlar...

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və liseyin birgə təşkilatçılığı ilə 1995-ci ildə Bakı metrosunda baş vermiş faciədə təhsil ocağının şəhid olmuş zabiti, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Çingiz Babayevin, eləcə də "İgidliyə görə" medalı ilə təltif edilmiş kursantlar Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərovun anım mərasimi keçirilib.*

*Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*



28 oktyabr 1995-ci il tarixi yaddaşlarda qanlı bir gün kimi qalıb. 24 il əvvəl həmin gün metronun "Ulduz" və "Nərimanov" stansiyaları arasında baş verən yanğın zamanı şəhər sakinlərindən də faciəli surətdə həlak olanlar oldu. Bu dəhşətli faciədən illər ötməsinə baxmayaraq, o qanlı hadisə həmişə ürəyimizi ağrıdır, qəlbimizi göynədir. Xalqımız bu qanlı faciədə həlak olanların xatirəsini həmişə əziz tutur, ehtiramla yad edir.

Baş verən qanlı faciə zamanı xalqımızın cəsur oğul və qızları ölümdən qorxmadan yaralananların köməyinə atılıblar. Onlar öz həyatlarını təhlükəyə ataraq yaralı insanları xilas ediblər. Belə cəsurların sırasında Cəmşid Naxçıvanski adına



Hərbi Liseyin zabiti, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülən baş leytenant Çingiz Babayev və "İgidliyə görə" medalı ilə təltif olunan kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov da olub.

Onlar həyatları bahasına olsa da, darda qalmış, köməyə ehtiyacı olan neçə-neçə insanı xilas edərək həyata qaytarıblar. Bu yolda canlarından keçsələr də, amallarına, məqsədlərinə çatıblar. Ölümə meydan oxuyaraq cəsarətləri ilə qəhrəmanlıq tarixi yazıblar.

Tədbirdə polkovnik Müslüm Nəsirov çıxış edərək baş leytenant Çingiz Babayevin və kursantların faciə zamanı göstərdikləri qəhrəmanlıqdan qürurla söz açdı:

- Metroda faciə baş verən zaman sağ qalanlar yaralıların köməyinə tələsiblər. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti baş leytenant Çingiz Babayev, kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov öz həyatlarını təhlükəyə ataraq onlarla yaralını xilas ediblər. Onlarla yaralının köməyinə yetişərək böyük hünər və qəhrəmanlıq göstəriblər. Əgər Çingiz Babayev və kursantlarımız yaralılara kömək etməsəydilər, yəqin ki, ölənlərin sayı daha çox olacaqdı. Amma bu cəsur oğulların hünəri və qorxmazlığı sayəsində faciə zamanı ölənlərin sayı az oldu. Faciə zamanı 286 nəfər həlak olub, 269 nəfər isə yaralanıb. 400 nəfərin isə həyatı cəsur, qorxmaz oğullar tərəfindən xilas edilib. Təəssüflər olsun ki, dəhşətli faciə zamanı xilaskarlar öz həyatlarını da itirdilər. Başqa insanların yolunda öz həyatlarını qurban verərək böyük igidlik göstərdilər. Çingiz Babayev Hərbi Liseyin 11 Milli Qəhrəmanından biri kimi daim qəlbimizdə yaşayır. Bu mərasimi keçirməkdə məqsədimiz həm şəhid olan qəhrəmanlarımızı anmaq, həm də onların igidliyinin kursantlarımız tərəfindən yadda saxlanılması, öyrənilməsi və hərbçi kimi xalqı və dövləti qarşısında vətəndaşlıq borcunu verməsini unutmamaqdır.

Baş vermiş faciə zamanı yaralanmış insanların həyatını xilas edərkən xüsusi şücaət və qəhrəmanlıq göstərdiyinə görə ümummilli lider Heydər Əliyevin 3 noyabr 1996-cı il tarixli Fərmanı ilə baş leytenant Çingiz Adil oğlu Babayev "Azərbaycanın Milli Qəhrəmanı" Fəxri adına layiq görülüb. Kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov "İgidliyə görə" medalı ilə təltif olunub.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə qəhrəmanların xatirəsi daim əziz tutulur. Onların adı ehtiramla yad edilir, hörmətlə xatırlanır. Qəhrəmanların ailə üzvləri ilə daim əlaqə saxlanılır. Biz dünən müəllimələrimizlə, zabit və kursantlarımızla birgə onların həm valideynləri, həm də ailə üzvləri ilə bərabər qəhrəmanların məzarlarını ziyarət etdik, qəbirlərinin üstünə gül dəstələri qoyduq. Bu gün biz qəhrəmanların valideynlərini və ailə üzvlərini tədbirimizə dəvət etmişik. Belə cəsur övlad böyütdüklərinə görə bir daha onlara minnətdarlığımızı bildiririk. Biz Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevlə, "İgidliyə görə" medalına layiq görülmüş kursantlar Samir Məmmədovla, Ruslan İsayevlə və Nicat Səfərovla fəxr edir, öyünürük! İnanıram



ki, gələcəyin zabitləri olacaq kursantlar igidliyi, qəhrəmanlığı bu oğullardan öyrənəcəklər!

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov çıxış edərək bildirdi ki, biz belə qəhrəmanlarımızla fəxr edirik! "Dövlətimiz daim şəhid ailələrinə diqqət və qayğı göstərir. Müdafiə Nazirliyinin rəhbərliyi də həmişə şəhid ailələrinin yanındadır. İnanırıq ki, C.Naxçıvanski adına Hərbi Liseyin kursantları daim bu qəhrəmanlıq ənənələrini yaşadacaqlar. Qəhrəmanlığı, igidliyi Çingiz, Samir, Ruslan və Nicat kimi oğullardan öyrənəcəklər."

Ehtiyatda olan polkovnik Hamlet İsayev də çıxışında metro faciəsi zamanı zabit və kursantların göstərdiyi qəhrəmanlıqdan ətraflı söz açdı.

"İgidliyə görə" medalına layiq görülmüş kursant Samir Məmmədovun atası Nadir Məmmədov da çıxış edərək övladlarının xatirəsini əziz tutduqlarına görə həm Hərbi liseyin rəhbərliyinə, həm də şəxsi heyətə dərin minnətdarlığını bildirdi. Sabahımızın əsgərləri olacaq kursantlara dəyərli məsləhətlər verdi.

Hərbi liseyin 1-ci kursunun kursantları ədəbi-bədii kompozisiya nümayiş etdirdilər, qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

Sonda polkovnik Müslüm Nəsirov söz alaraq mərasimdə iştirak edən hər bir kəsə dərin minnətdarlığını bildirdi və xüsusi olaraq vurğuladı ki, qəhrəman zabitlərin, kursantların xatirəsi C.Naxçıvanski adına Hərbi Liseydə daim əziz tutulacaq. Adlarını igidlikləri ilə qəhrəmanlıq tariximizə böyük hərflərlə yazanların - Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevin və "İgidliyə görə" medalına layiq görülən kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərovun xatirəsinə həsr olunan anım mərasimi başa çatdı.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Orduda yeni mühəndis texnikaları silahlanmaya qəbul edilib

Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı bölmələrinin texniki imkanları qardaş Türkiyə Respublikasının milli istehsalı olan texnikalarla gücləndirilir.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi maliyyə əməkdaşlığı haqqında Saziş"ə əsasən, hərbi əməkdaşlığı daha da möhkəmləndirmək, Azərbaycan Ordusunun müasir dünya standartlarına uyğun inkişaf etməsinə töhfə vermək məqsədi ilə həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Bu tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Orduda mühəndis təminatı işinin daha da yaxşılaşdırılması məqsədi ilə yeni xüsusi texnikaların ilk hissəsi silahlanmaya qəbul edilib. Türkiyədə istehsal edilən mini ekskavatorların ordunun təminatına daxil edilməsi hərbi əməkdaşlıq istiqamətində atılan mühüm addımlardan biridir.

Silahlanmaya qəbul edilən mühəndis texnikalarının yüksək texniki xüsusiyyətləri onlara az vaxtda çox iş görməsinə imkan verir. Türkiyənin yerli istehsalı olan MST teleskopik yükləyiciləri bir çox üstünlüklərə malikdir. Həmin texnikalar həm də texniki xidmət xərclərinə və yanacağa qənaəti ilə seçilir. Qabaqcıl texnologiya və dünya standartlarına uyğun komponentlərdən ibarət bu texnikalar dəyişən hidravlik nasosu və iki pilləli sürət qutusuna qoşulmuş hidromotoru sayəsində operatoru yüksək dartma və mükəmməl idarəetmə ilə təmin edir. Müxtəlif sənaye tətbiqləri üçün bütün ehtiyacları ödəyə bilən bu mini ekskavatorların üstün texnologiyası ən çətin coğrafi məkanlarda belə asan istifadəyə imkan verir.




**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Hərbi qulluqçuların iştirakı ilə seminar keçirilib

Müdafiə Nazirliyi ilə Dövlət Təhlükəsizlik Xidmətinin birgə fəaliyyət planına uyğun olaraq Beyləqan rayon Mədəniyyət Evində hərbi qulluqçuların iştirakı ilə "Xarici xüsusi xidmət orqanlarının pozuculuq fəaliyyəti" və "Dini ekstremizmə qarşı mübarizə və informasiya təhlükəsizliyi" mövzularında növbəti seminar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə keçirilən seminarların şəxsi heyətin maarifləndirilməsində böyük rol oynayacağı qeyd edilib.

Seminar "Heç vaxt gec deyil" sənədli filminin nümayişi ilə başa çatıb.

*Böyük Vətən müharibəsi - 1941-1945*

# Dostluğa sədaqət tükənməzdir

*Böyük Vətən müharibəsi illəri bəşəriyyət tarixində ən dəhşətli, yer üzünü məhvə sürükləyən, insanlığın məhvinə yönəlmiş müharibə kimi yaddaşlarda qalıb. O dəhşətlərdən, ağır faciələrdən xilas olan xalqlar bir daha müharibə alovlarını görmək istəmirlər. Başqa xalqlar kimi xalqımız da Böyük Vətən müharibəsi illərində itkilərə, məşəqqətlərə sinə gəriblər. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" hayqıran xalqların birliyi, qələbə əzmkarlığı yer üzünü bürümək istəyən Alman faşizmindən dünyanı xilas edib.*






Onların sırasında Azərbaycan xalqının xüsusi yeri var. Faşizmə qarşı müharibədə 600 mindən çox qəhrəman, fədakar oğul və qızlarımız döyüşüblər.

170 nəfər Sovet İttifaqı Qəhrəmanı kimi ən yüksək fəxri ada layiq görülüblər. O dövrün tarixinə qəhrəmanlıq səhifələri yazıblar.

Böyük qələbənin əldə edilməsində başqa xalqlar kimi, ispan xalqının nümayəndələri də yüksək fədakarlıq göstəriblər. Bakını ələ keçirməyə can atan hitlerçilərə qarşı mübarizədə ispan təyyarəçiləri də fəal iştirak edirdilər. Onların bir çoxu 1936-cı ildə Gəncə şəhərində fəaliyyət göstərən təyyarəçilik məktəbinin yetirməsi olublar.

Təyyarəçilik məktəbi 1936-cı ildə Sovet hökuməti və İspaniya arasında bağlanmış müqaviləyə əsasən Bakı və Gəncə şəhərlərində təşkil olunub. Məktəbə Sovet İttifaqı Qəhrəmanı Ernnest Şaxta rəhbərlik edib. 1937-ci ilin fevralında 193 nəfər ispaniyalı gənc məktəbdə təlimə başlayıb. Məktəbdə qısa müddət ərzində kursantlara təyyarəçilik peşəsi, nəzəri-texniki və hücum taktikası, hava döyüşləri haqqında biliklər verilib, təyyarəçi kimi formalaşıblar. İki il ərzində ildə 100 nəfər pilot olmaqla beş dəfə buraxılış olub. İspaniyada fəaliyyət göstərən 413 sovet təyyarəçisini ispaniyalı pilotlar əvəz ediblər. 1939-cu ildə isə 185 nəfər Gəncə təyyarəçilik məktəbini bitirib.

Gəncə təyyarəçilik məktəbinin ispaniyalı məzunları Böyük Vətən müharibəsi cəbhələrində alman faşizminə qarşı döyüşlərdə böyük rəşadətlər göstəriblər. İspaniyalı Maşel Sarausa 1942-ci ilin oktyabrında Bakı səmasında reyd edərkən həyatını itirib. Leytenant Xose Palyares də müharibədə həyatını itirmiş ispan təyyarəçisidir.

İlk dəfə 1937-ci ildə Gəncəyə gələn Xose Mario Bravo beş aylıq təhsil müddətini başa vurduqdan sonra İspaniyaya qayıdıb. Xarkovun işğalından sonra Sovet Ordusu sıralarına daxil olan Xose Mario 1942-ci ildən etibarən Bakının hava hücumundan müdafiəsində iştirak edib. 1943-cü ildə Tehran konfransına gedən Stalini müşayiət edən təyyarəçilərdən biri də Xose Mario Bravo olub.

İspan və Azərbaycan xalqları arasında tarixi dostluq ənənələri həmişə davam etdirilib. Bu münasibətlər Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra yeni mərhələyə qədəm qoyub. Ölkəmizin müstəqilliyini ilkin tanıyan ölkələrdən biri də İspaniya olub. 1992-ci ilin fevralında ölkələrimiz arasında diplomatik əlaqələr qurulub. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə ölkələr arasında əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilib.

Böyük Vətən müharibəsində iştirak edən və xidməti vəzifələrini yerinə yetirərkən döyüşlərdə qəhrəmancasına həlak olan Gəncə təyyarəçilik məktəbinin yetirmələrinin xatirəsi həmişə uca tutulur. Ölkəmizin qədim mədəniyyət, incəsənət qəhrəmanlıq beşiyi sayılan Gəncə şəhərində Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vüqar Veysəlovun adını daşıyan 30 saylı məktəbdə ispan təyyarəçilərinin xatirə muzeyi yaradılıb. 2016-cı ildən fəaliyyət göstərən muzeydə müxtəlif sənədlər, şəkillər nümayiş etdirilir. Sənədlərdə Bakının hava hücumundan müdafiəsində iştirak etmiş kapitanlar Xose Mario Bravonun, Manuel Sarausanın, leytenantlar Xoakin Dias Santrosun, Luis Lavinin, Xose Paylaresin və başqalarının adları xüsusi qeyd olunub. Şəhər ictimaiyyətinin nümayəndələri, məktəblilər teztez muzeyə baş çəkir, müharibə qurbanlarının xatirəsinə hörmət və ehtiramlarını bildirirlər.

Məktəbin direktoru Əməkdar müəllim İlham Həsənov bildirdi ki, 1937-1939-cu illərdə Gəncə şəhərində fəaliyyət göstərən 20 nömrəli təyyarəçilik məktəbinin ispaniyalı kursantları və təlimçiləri Moskva, Odessa şəhərlərinin faşistlərdən azad olunmasında, Bakının hava məkanının qorunmasında misilsiz xidmətlər göstəriblər. Sevindirici haldır ki, Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olanların ailələrinə respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük diqqət, qayğı və ehtiram göstərilir. Onların xatirəsi uca tutulur.

Gəncə şəhərində İspaniyanın Aviatorlar Assosiasiyasının, Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi ilə ilk təlim qrupunun Azərbaycana gəlişinin 80 illiyinə, İkinci Dünya müharibəsində iştirak etmiş ispan pilotların həlak olmasının 75-ci ildönümü münasibətilə keçirilən tədbirdə onların yaxınları, ailə üzvləri iştirak ediblər. İspaniyalı qonaqlar ispan təyyarəçilərinin xatirə muzeyində toplanan sənədlərlə, şəkillərlə, qəzet yazıları ilə yaxından tanış olublar. Şəhərin Fəxri xiyabanında 1936-1939-cu illərdə təyyarəçilik məktəbində təlimlər zamanı həlak olan ispan pilotları və onların təlimçilərinin məzarları da ziyarət olunub. Assosiasiya rəhbəri Akilino Mata Plyer deyib: "Gəncə əhalisi, Azərbaycan xalqı bizim əcdadlarımızın xatirəsini qoruyur, bu həmin xalqın böyüklüyünün göstəricisidir".

İspan və Azərbaycan yaradıcılarının hazırladıqları "Azərbaycan səmalarında" sənədli filmi də İspaniya-Azərbaycan xalqlarının dostluğuna töhfə kimi qiymətləndirilir.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## "MDB Müdafiə Nazirləri Şurasının fəaliyyəti çoxsahəli hərbi əməkdaşlığın inkişafına töhfə verir"

Təhlükəsizlik sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair prinsipial mövqe MDB Dövlət Başçıları Şurasının oktyabrın 11-də Aşqabadda və Hökumət Başçıları Şurasının oktyabrın 25-də Moskvada keçirilən iclaslarında bir daha təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, bunu MDB İcraiyyə Komitəsinin sədri - icraçı katib Sergey Lebedev MDB Müdafiə Nazirləri Şurasının oktyabrın 30-da Bakıda keçirilən 77-ci iclasındakı çıxışında deyib.

O bildirib ki, MDB Müdafiə Nazirləri Şurasının fəaliyyəti çoxsahəli hərbi əməkdaşlığın inkişafına davamlı töhfələr verir. MDB ölkələrinin Müdafiə nazirlərinin hər bir görüşü üzv dövlətlərin hərbi əməkdaşlığın genişləndirilməsində ümumi maraqların olduğunu göstərir. Bugünkü görüşün gündəliyində 20-dən çox məsələnin yer alması buna nümunədir.

İcraiyyə Komitəsinin sədri MDB-yə sədrliyin gələn il Özbəkistana keçdiyini xatırladıb.

*Gənc zabitlərimiz*

## "Döyüş növbətçiliyi məsuliyyətlə aparılır"

*Bu gün hər bir ölkə vətəndaşı fəxrlə deyə bilər ki, respublikamızın suverenliyini qorumağa və torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan ordumuzun yüksək döyüş hazırlığına malik peşəkar zabit kontingenti var. Müdafiə Nazirliyinin hərbi birlik və birləşmələrində, qoşun növlərində, Əlahiddə Ümumqoşun Orduda, o cümlədən cəbhə xəttində yerləşən bölmələrimizdə xidmət edən şəxsi heyət böyük ruh yüksəkliyinə və döyüş əzminə malikdir.*



"Ön xətdə yerləşən bölmələrimizdə döyüş növbətçiliyi uğurla aparılır", - deyə ordumuzun peşəkar, vətənpərvər gənc zabitlərindən biri, düşmənlə təmas xəttində Vətənimizin keşiyində sayıqlıqla dayanan Fərid Heydərli bizimlə söhbətində əminliklə bildirdi: "Cəbhə bölgəsində yerləşən hərbi hissəmizdə daima döyüş hazırlığını yüksəltmək məqsədilə, plana uyğun olaraq komandir toplanışları keçirilir. Bunun üçün şəxsi heyət bütün imkanlarını səfərbər edir. Döyüş hazırlığı bir çox amillərlə bağlıdır. Hər şeydən əvvəl şəxsi heyətin xalqa, Vətənə, dövlətə sədaqətlə xidmət etmək əzmi, iradəsi olmalıdır. Hər bir əsgər hərb işini mənimsəməli, ona tapşırılan silah və texnikadan düzgün istifadə etməyi bacarmalıdır. Biz həm zabit, həm də komandir olaraq bu istiqamətdə üzərimizə düşən məsuliyyətin fərqindəyik. Eyni zamanda, hər bir hərbi qulluqçu özündə müsbət şəxsi keyfiyyətləri formalaşdırmağı bacarmalıdır. Xüsusilə, təbəçiliyində şəxsi heyət olan komandir heyətində bu amil vacib məsələdir. Peşəkarlıq səviyyəsi, idarəetmə qabiliyyətləri, buradakı bölmələrimizin zəruri tələbatlarının vaxtlıvaxtında ödənilməsi də daim döyüş hazırlığını şərtləndirən amillərdəndir".

Gənc zabit F.Heydərli keçirilən təlimlərdə döyüş vərdişlərini daim təkmilləşdirdiklərini, şəxsi heyətin hazırlıq səviyyəsinin yüksəldiyini bildirdi. Onu da dedi ki, şəxsi heyətin döyüş hazırlığını artırmaq üçün intensiv məşğələlər, çöl dərsləri keçirilir. "Şəxsi heyətə daha geniş proqram üzrə, fərdi hazırlıqdan tutmuş manqa, taqım, bölük, tabor səviyyəsində hazırlıq aparılır. Verilən tapşırıqları, keçirilən dərsləri mənimsəyən əsgər səngərdə heç bir çətinlik çəkmir. Qeyd edim ki, hazırlıq məşğələsi üç üsulla aparılır: söhbət, əyani göstərmə və praktiki məşq. Peşəkar hərbi qulluqçularımız tərəfindən bütün atıcı silahlar, onların taktikitexniki xüsusiyyətləri, təyinatları haqqında əsgərlərə lazımi biliklər aşılanır. Hazırlıq səviyyəsi yüksək qiymətləndirilən şəxsi heyətin sayəsində ön xətt bölmələrimizdə döyüş növbətçiliyi uğurla aparılır".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü.**
**2. Dövlətimizin iqtisadi inkişaf strategiyası.**

**Mövzu:** Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri, inzibati ərazi bölgüsü, iqtisadi inkişafı.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

*Azərbaycan Respublikasının dövlət quruluşu, dövlət rəmzləri və inzibati ərazi bölgüsü*

Azərbaycan Respublikasının siyasi sistemi milli və tarixi şəraitin xüsusiyyətlərini əks etdirməsi ilə səciyyəvidir. Onun meydana gəlməsində və fəaliyyətində çox müxtəlif amillər rol oynamış və oynamaqdadır. Siyasi sistemin fəaliyyətinin formalaşmasına əhalinin siyasi mədəniyyətinin xüsusiyyətləri mühüm təsir göstərir. Azərbaycanda hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin hazırlanıb. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının siyasi sisteminin struktur formalaşması əsasən 1995-ci il noyabrın 12-də ölkənin yeni Konstitusiyasının qəbul edilməsi ilə başa çatmış oldu. Konstitusiyaya uyğun olaraq Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika kimi müəyyənləşdi.

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə etdi.

Konstitusiyada göstərildiyi kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunvericilik, icra və məhkəmə hakimiyyəti. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirən orqan Milli Məclis, icra hakimiyyətini həyata keçirən orqan Prezident Administrasiyası, Məhkəmə hakimiyyətini həyata keçirən orqan Azərbaycan Respublikasının məhkəmələridir. Bu hakimiyyət orqanlarından hər birinin fəaliyyəti Konstitusiya və qanunvericilik aktları ilə tənzimlənir.

**Azərbaycan Respublikasının dövlət rəmzləri**

Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Konstitusiyasının 23-cü maddəsində göstərildiyi kimi, Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

**Dövlət bayrağı**

Azərbaycanda üçrəngli Dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. Bu bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilmiş və adı çəkilən dövlət qurumunun vəsatəti əsasında 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti üçrəngli bayrağın Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Dövlət gerbi**

Azərbaycanın Dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində gerb qəbul edilməmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

**Dövlət himni**

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini də qəbul etməyə imkan vermədi.

1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

**Ərazi quruluşu və inzibati ərazi bölgüsü**

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanun Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün, habelə ərazi vahidlərinin qeydiyyatının, sərhədlərinin müəyyən edilməsinin və dəyişdirilməsinin, adlandırılmasının və ya onların adlarının dəyişdirilməsinin, hüquqi əsaslarını, eləcə də ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı digər məsələlərin tənzimlənməsində dövlət orqanlarının və bələdiyyələrin səlahiyyətlərini müəyyən edir.

Qanuna əsasən, Azərbaycan Respublikasında ərazi quruluşu müəyyənləşdirilib, inzibati ərazi bölgüsü aparılıb, yaşayış məntəqələri, ərazi vahidləri, inzibati ərazi vahidləri dəqiqləşdirilib.

Azərbaycan Respublikasının paytaxtı, böyük elmi-mədəni və sənaye mərkəzi olan - Bakı şəhəridir. Bakı qədimliyinə, ərazinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biridir. Bakı şəhərində və Abşeron yarımadasında insanlar çox qədim zamanlardan məskunlaşıb və burada yaşayış məntəqələri yaradıblar.

Bakı özündə 11 inzibati rayonu, 5 şəhər tipli qəsəbəni birləşdirir.

*Dövlətimizin iqtisadi inkişaf strategiyası*

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və gücləndirilməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də strateji və transmilli layihələri həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

1994-cü ildə isə "Əsrin müqaviləsi"nin imzalanması ilə Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının əsası qoyuldu. Bu strategiya çərçivəsində həyata keçirilmiş tədbirlər, o cümlədən Dövlət Neft Fondunun yaradılması məhz davamlı inkişafın təmin edilməsinə, dövlətimizin iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsinə yönəldildi.

Ulu Öndərin imzaladığı "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" 2002-ci il 10 sentyabr tarixli, "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002-ci il 28 sentyabr tarixli fərmanlar özəl sektorun inkişafında mövcud olan problemlərin kompleks və sistemli həllini, sahibkarlığın sürətli inkişafı üçün əlverişli iqtisadi və institusional mühitin yaradılmasını, müxtəlif dövlət orqanlarının nəzarət funksiyalarının məhdudlaşdırılmasını nəzərdə tuturdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ulu Öndərin müəyyən etdiyi ümumi iqtisadi kursu davam etdirməsi nəticəsində Azərbaycan iqtisadiyyatı yüksək səviyyədə inkişaf etdi.

Dövlət başçısının rəhbərliyi ilə 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" (2005-2025) müəyyənləşdirilib. Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması, onlardan əhalinin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsini zərurətə çevirmişdir. Bu strategiya neft və qaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi.

2003-2017-ci illər ərzində dövlət başçısının məqsədyönlü, konkret hədəflərə istiqamətlənmiş fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etdi, qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan verdi.

Son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və proqramlar qəbul edilmişdir.

Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsidir. Belə ki, ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi məqsədi ilə qəbul edilən "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən 2014-cü il "Sənaye İli" elan edildi. Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır.

Dünya ölkələri, xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması xüsusi olaraq qeyd edilməlidir. Bu layihələr üzrə işlərin çox hissəsi artıq icra olunmuşdur.

Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, ətraf mühitin qorunması və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edilmiş, hal-hazırda icrası təmin olunmaqdadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi və siyasi sahədə həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərtərəfli inkişafı üçün böyük imkanlar və yeni-yeni perspektivlər açır. Heç şübhəsiz, Azərbaycanın bugünkü inkişafı onu ortamüddətli perspektivdə yüksək həyat səviyyəsinə, güclü iqtisadiyyata malik ölkələr sırasına daxil edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Əlahiddə Ümumqoşun Orduda görkəmli şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 137-ci ildönümü münasibətilə silsilə tədbirlər keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə böyük söz ustadının zəngin yaradıcılığı barədə şəxsi heyətə ətraflı məlumat verilib, Cavid şəxsiyyətinə və irsinə göstərilən dövlət qayğısından danışılıb. Bildirilib ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavidin əsərləri xalqımızın zəngin bədii fikir xəzinəsində layiqli yer tutur. Həqiqət şairi Hüseyn Cavid "gizli millətçi əks-inqilabi təşkilat"da iştirakı bəhanəsi ilə həbs edilərək Sibirə sürgün olunub və doğma Vətənindən çox uzaqlarda vəfat edib. Vurğulanıb ki, böyük sənətkara əsl bəraəti



ümummilli liderimiz Heydər Əliyev qazandırıb. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin 100 illik yubileyi Azərbaycanda təntənəli şəkildə qeyd edilib, dahi şairin nəşinin qalıqları 1982-ci ildə Azərbaycana gətirilərək doğulduğu Naxçıvanda torpağa tapşırılıb. Ulu Öndərin şəxsi təşəbbüsü və himayəsi ilə ədibin məzarı üzərində 1996-cı ildə məqbərə ucaldılıb, Naxçıvanda və Bakıda Hüseyn Cavidin ev-muzeyləri açılıb.

Bu gün Naxçıvan Muxtar Respublikasında Cavid irsinin yaşadılması, öyrənilməsi və təbliğ olunması diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na Hüseyn Cavidin "Azər" poeması da daxil edilib.

Tədbirdə Hüseyn Cavid yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiyada görkəmli ədibin əsərləri bədii qiraət olunub.

"Cavid ömrü" filmi nümayiş etdirildikdən sonra tədbirdə fəal iştirak edənlər mükafatlandırılıblar.

Naxçıvan Qarnizonunda keçirilən silsilə tədbirlər Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində davam etdirilib. Burada nümayiş olunan eksponatlarla yaxından tanış olan hərbi qulluqçular zəngin təəssüratlar əldə ediblər.

## *Nümunəvi xidmət*

# “Azərbaycan əsgəri həsrətə son qoyacaq!”

*Bu gün Azərbaycan Ordusunun kadr resurslarının intellektual potensialının artırılması, strateji planda ordunun peşəkar hərbi qulluqçularla komplektləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji və əxlaqi keyfiyyətlərinin yüksəldilməsi, hərbi təlimlərin diqqət mərkəzində saxlanılması, həmçinin Aprel və Günnüt zəfərləri onu deməyə əsas verir ki, hicrana son qoymağa, vüsala qovuşmağa çox az qalıb. Xalq inanır ki, bu arzunu gerçəkləşdirəcək bir qüvvə varsa, o da Azərbaycan əsgəridir.*



Bu gün Qarabağ sevgisi, torpaqlarımızı azad görmək sevdası Azərbaycan dövlətini güclü ordu qurmağa və bu ordunu peşəkar zabit kadrları ilə, Vətəninə, elinə, obasına bağlı əsgərlərlə komplektləşdirməyə sövq edib. Vətəni qorumaq eşqi, işğal olunan torpaqları mənfur düşməndən azad etmək istəyi neçə-neçə gəncin yolunu Azərbaycan Ordusundan salıb.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Şahin Məmmədov da bu istək, bu arzu orduya gətirib. Gəncə şəhərində dünyaya göz açan çavuş Ş.Məmmədov bildirdi ki, ordumuza göstərilən diqqət və qayğı, zabitlərimizin xidmətlərimizi qiymətləndirməsi bizi daha da ruhlandırır və indi əsgərlərimiz hərbi xidmətə böyük sevgi ilə yanaşır, burada olduqları müddətdə əsl kişilik məktəbi keçirlər. "Ordumuz peşəkar bir səviyyədədir, artıq 90-cı illərin ordusu deyil. Daha Vətənimizin, torpağımızın vahid komandanlıq altında birləşən, müasir silahlarla təmin olunmuş nizami bir ordusu var. Bu nizami ordunun arxasında ona öz misilsiz məhəbbətilə dəstək olan xalqımız dayanır. Hökumət, xalq, dövlət birliyi - bax, bu gördüyünüz yüksəkliklərdə keşik çəkən əsgər və zabit heyətinə, o cümlədən bütövlükdə ordumuza daim qol-qanad verir. Biz güclüyük. Təkcə silahsursatımızla, hərbi texnikamızla, mənəvi-psixoloji hazırlığımızla deyil, həm də haqqımızı tələb etməkdə, ədalətimizə güvənməkdə güclü və qüdrətliyik".

"Xidmət etdiyimiz hərbi hissə Qarabağımızın ağır günlərinə şahidlik edib", - deyə çavuş sözünə davam etdi. - Bu hərbi hissədə Azərbaycanımızın çox mərd, cəsur oğulları xidmət ediblər. Onlardan bəziləri Vətən uğrunda şəhid olublar. Bizim də əsas məqsədimiz odur ki, belə qəhrəman oğullarımızla fəxr etməklə yanaşı, həm də onların yolunu davam etdirək. Ən böyük arzumuz Ali Baş Komandanımızın əmri ilə tezliklə işğal altında olan torpaqlarımızın azad olunmasıdır. Qəribsədiyimiz torpaqlar, zirvələr, yüksəkliklər üçrəngli bayrağımızın həsrətindədir. O həsrətə Azərbaycan əsgəri son qoyacaq!

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

## *Hərbi texnikalar, silahlar*

# “Şipon” qumbaraatanı



"Şipon" (ingiliscə Shiphon) İsrail istehsallı tank əleyhinə əl qumbaraatanıdır. 1990-cı ilin sonunda İsrailin Weapon İndustries firması tərəfindən hazırlanıb. Mövcud qumbaraatan yüngül zirehli texnikaların, səhra fortifikasiya tikililərinin məhv edilməsi və divar maneələrinin aradan qaldırılması üçün nəzərdə tutulub.

Bir çox müharibə və münaqişələrdə istifadə edilib. Heyəti bir nəfərdən ibarətdir. Onun effektli atəş uzaqlığı 600 metrə qədərdir, qumbarası 800 millimetr qalınlığında zirehi deşməyə qadirdir. "Şipon" tank əleyhinə qumbaraatanının kalibri 96 millimetrdir. Onun nişangah uzaqlığı isə 600 metrə qədərdir. Qumbaraatanın uzunluğu 110 sm, döyüş təchizatı ilə birlikdə çəkisi isə 9 kiloqramdır. Səyyar vəziyyətindən döyüş vəziyyətinə bir dəqiqə ərzində gətirilir. "Şipon" qumbaraatanı atəşi idarətmə portativ sistemi ilə də təchiz edilib. Tərkibinə lazerli məsafəölçən, hərəkətdə olan hədəfləri müşayiət etmək üçün avtomat sistem, küləyin sürətini və temperaturu ölçmək üçün sayqac daxil edilib.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Şimali Koreya növbəti raket sınağı keçirib



Koreya Xalq Demokratik Respublikası (KXDR) oktyabrın 31-də növbəti dəfə raket buraxılışı həyata keçirib.

Bu barədə Cənubi Koreya silahlı qüvvələrinin baş qərargahı məlumat yayıb. Bildirilir ki, KXDR şərq istiqamətində raket sınağı buraxıb. Hələlik raketin detalları, habelə onun hansı hündürlükdə və nə qədər məsafə qət etməsi barədə məlumat yoxdur.

Qeyd edək ki, bu, Şimali Koreyanın 12-ci iri raket sınağıdır. Sonuncu dəfə o, oktyabrın 2-də su altından ballistik raket buraxılışını həyata keçirmişdi.

## Rusiya hərbi polisi Suriyada patrul marşrutu üzrə hərəkətə başlayıb



Rusiyanın hərbi polisi Türkiyə ilə birgə patrul marşrutu üzrə Suriyanın "Aylişar" buraxılış məntəqəsindən ölkənin şimal sərhədinə doğru hərəkətə başlayıb.

Patrulun tərkibində üç ədəd "Tiqr" zirehli avtomobili və bir ədəd zirehli transportyor var. Marşrut Türkiyə-Suriya sərhədi boyu 160 kilometr uzanır.

"Patrul marşrutu mürəkkəbdir. Zirehli texnika ilə Kobani şəhərinə girməmək üçün hərbi karvan kənd yolları ilə hərəkət edir", - deyə zabit İvan Jukov bildirib.

Xatırladaq ki, oktyabrın 22-də Ankara və Moskva arasında Suriya ilə bağlı memorandum imzalanıb. Rəcəb Tayyib Ərdoğan və Vladimir Putin Soçi şəhərində altı saatlıq danışıqların yekununda Suriya Ərəb Respublikasının vahidliyinin və ərazi bütövlüyünün, Türkiyənin milli təhlükəsizliyinin tərəfdarı olduqlarını təsdiqləyib, həmçinin Ədən sazişini dəstəklədiklərini bildiriblər.

Sənədə əsasən, Tell-Abyad və Ras-əl-Ayn şəhərləri arasında hazırkı "Sülh çeşməsi" əməliyyatı rayonunda 32 kilometr dərinlikdə status-kvo vəziyyəti saxlanılacaq. Türkiyənin keçirdiyi əməliyyat xaricindəki zonada Bəşər Əsədə sadiq qüvvələr və Rusiyanın hərbi polisi 150 saat ərzində kürd separatçılarının və silahlarının sərhəddən 30 kilometr dərinliyə çəkilməsinə yardım edəcək. Qamışlı şəhəri istisna olmaqla, sərhəddən on kilometr dərinlikdə Türkiyə və Rusiya hərbçilərinin birgə patrulu başlayacaq.

## Pentaqon əl-Bağdadinin öldürülməsi ilə bağlı əməliyyatın təfərrüatlarını açıqlayıb



İŞİD rəhbəri Əbu Bəkr əl-Bağdadinin aradan götürülməsi üzrə əməliyyatın gedişində altı silahlı, o cümlədən dörd qadın öldürülüb.

Bu barədə Amerika Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığının rəhbəri general-leytenant Kennet Makkenzi Ağ evdə jurnalistlər üçün təşkil olunmuş brifinqdə bildirib.

"Dinc əhali arasında itkilərə yol verməmək, həmçinin obyektdə olan uşaqları qorumaq üçün bütün lazımi tədbirlər görülmüşdü. Orada xüsusi təyinatlı qüvvələrə təhlükə törədə biləcək beş İŞİD yaraqlısı var idi. Ərəbcə silahı ataraq təslim olmaq əmrinə tabe olmayan silahlılar öldürülüb. Onlardan dördü qadın olub", - deyə Makkenzi bildirib.

Onun sözlərinə görə, Pentaqon əməliyyata dair bir neçə fotoşəkli və videoyazını dərc edib. Pentaqon nümayəndəsi, həmçinin xüsusi təyinatlı qüvvələrin tapdıqları sənəd və elektron qurğunu müsadirə etdiyini deyib.

Xatırladaq ki, ötən bazar günü Donald Tramp Suriyada keçirilən əməliyyat nəticəsində İŞİD terror qruplaşmasının lideri Əbu Bəkr əl-Bağdadinin öldürüldüyünü elan etmişdi. Həmçinin digər əməliyyat nəticəsində çox güman ki, qruplaşmada yüksək vəzifəli komandirlərdən biri Əbu əl-Həsən əl-Mühacir də məhv edilib.

**AZƏRTAC-ın materialları əsasında**

## Könlüm şeir istəyir

# Ata paltosunun istisi

*Azərbaycan şeirinə 60-cı illərdə gələn şairlər sırasında Davud Nəsibin yaradıcılığı istər mövzu çalarına, istər poetik tutumuna görə fərqlənib. Şeir həm də düşündürücülüyüylə könülə yatır. İsa İsmayılzadənin "Səssiz toylar"ı qədər də Davud Nəsibin "Ata paltosu" şeiri kövrəkliyiylə, o illərin ağrı-acılarını poeziyada yaşatma qüdrətiylə səciyyəvidir.*

*Davud Nəsibin şeirlərinin şair-oxucu mükaliməlşməsi kimi oxunur - səmimidir, poetik dəyəri oxucunun düşüncələrinə də, duyğularına da səmimiliklə hopur...*

**"Azərbaycan Ordusu"**

### Ata paltosu

Bir meşin palto var,
Bilmirik kim onu geyinəcəkdir;
Atamdan qalıb,
Bir şeyi bilirik -
Qeyrəttək qalıb,
Kim onu geyinsə, öyünəcəkdir.
Anam üç qardaşı çağırıb deyir:
Artıq böyümüsüz -
Hamı halıdır.
Paltoya,
Kim geysə
Gövdəylə deyil,
Ata qeyrətiylə sığışmalıdır.
Bilin ki,
Paltoya layiqəm deyən,
Sonuncu şərti də düz bilməlidir:
Paltonu əyninə götürüb geyən
Ata yerişini yeriməlidir.
Çöldə səhv edəndə,
Evə gəlirik,
Evdə nəzərimiz çaşır, karıxır;
Palto bizə baxır,
Elə bilirik,
Paltonun içindən atamız baxır.
Bu meşin paltoda qüdrətə bir bax,
Rəngi nə saralıb,
Nə də ki, solub;
Dəblər ildən-ilə dəyişir.
Ancaq
Palto atam kimi dəyişməz olub.
"Ürəksiz böyüyər" -
Duyub ki, atam -
Üç oğul paltodan ətrini alsın.
Paltonu,
Bəlkə də qoyub ki, atam,
Evdə hənirtisi, istisi qalsın.
Çöldə səhv edəndə, evə gəlirik.
Evdə üstümüzə baxışlar yağır;
Palto bizə baxır,
Elə bilirik,
Paltonun içindən atamız baxır.
Bəlkə biz atayıq atamız təki,
Bəlkə yanılıram, fikrim çaşıbdır.
Üç qardaş paltonu geyinmirik ki,
Palto bizim üçün atalaşıbdır.

### Sevgidə tələsməyin

A qızlar, sevgidə tələsməyin siz,
Sevgi kəməndini sizə tez atır.
Sizin qəlbinizdə sizdən xəbərsiz
Sevilə-sevilə bir sevgi yatır.

Yolumdan ayrılıb mən çaşsam əgər,
Doğru sözlərimdir, eşidin bunu;
Sizin birinizə yanaşsam əgər
Hardasa bir oğlan bükər boynunu.

Ömrün ən müqəddəs arzularına,
Niyə tələsirsiz?
Yoxsa çaşıbsız?
Mən namərd demirəm başqalarına,
Nə yaxşı mənimlə qarşılaşıbsız.

Həyatın hesabsız hay-harayından
Ömrə bir hay düşür, bir haray düşür,
Yadda saxlayın ki, sevgi payından
Həyatda hərəyə bircə pay düşür.

Gizlicə qovrulub hey için-için,
Kim isə ömrünü açar səhərsiz…
Hələ tələsməyin, hər birinizçün
Bir oğlan yol gəlir sizdən xəbərsiz.

İllərin üstündən illər aşdıqca,
Zamanın hökmündə elə çaşıram.
Böyüyüb siz mənə yaxınlaşdıqca,
Yaş ötür, mən sizdən uzaqlaşıram.

A qızlar, sevgidə tələsməyin siz,
Sevgi kəməndini sizə tez atır.
Sizin qəlbinizdə sizdən xəbərsiz
Sevilə-sevilə bir sevgi yatır.

Ömrünün yazını, sevgi çağını
Yaşım silkələyib, salıb əlimdən.
Ömrümün subaylıq sultanlığını
Oğlumun gəlini alıb əlimdən.

Qızlar bulağından bir gün içəndə,
Kiminsə qəlbini siz ovlarsınız.
Sabah qapınızdan gəlib keçəndə,
Məni yox, oğlumu haraylarsınız.

### İnsan məhəbbətlə gəlir dünyaya

Sevgi nə saralar, sevgi nə solar,
Bu eşqi, ülfəti ötərgi sanma.
Desələr: "Çox sevib, ayrılmaq olar,
Sevgi qabaqdadır", buna inanma.

Qəlbində od varsa, qışda da yazsan,
Soyutmaz nə boran, nə də qar səni.
Əgər başqasına sən qulaq assan,
Səhvin ömrün boyu yandırar səni.

Əl çatmaz, ün yetməz bir uzaq kimi
Onu sən axtarma, gəzmə hər dəfə,
Ömrünü bəzəyər çilçıraq kimi
Məhəbbət bir dəfə, sevgi bir dəfə.

Kim deyər böyüksən, ya da uşaqsan,
Sevinc ağlayanda, ya güləndədir?
Sevilə-sevilə yaşayacaqsan,
Dünyanın sevinci sevilləndədir.

Saysız qəmlənərsən, saysız gülərsən,
Saysız nişan olar sinən hədəfə.
Yüz dəfə doğulub, ölə bilərsən,
Doğular ömrünə sevgi bir dəfə.

Bu dünya bəzəkdir, sevgi möcüzə,
Bir əsr yaşasan onsuz, - mənasız… -
Sevgi yaşamaqçün verilib bizə.

Həyatda sevilmək deyildir asan,
Çalış, öz ömrünü sən vermə zaya,
Necə ki, sevmirsən - doğulmamısan,
İnsan məhəbbətlə gəlir dünyaya.

### Ürək alışmasa

Qəlbində bir yurd sal,
Bir mənzil, bir ev,
Açıb qönçələnsin həyatın-varın.
Gözəl qız,
demirəm, sən məni gəl sev,
Həyatda bir olsun əhdin, ilqarın.

Hərə öz ömrünü yaşar bir adda,
Gün-gündən fərqlidir, bil ki, il kimi.
Hər şeyin dövranı vardır həyatda,
Vaxt keçir, solarsan qızılgül kimi.

Bu dünya möcüzə, bu torpaq təmiz,
Ürək hesablaşmır var ilə, yoxla.
Dünyaya bir dəfə göz açırıq biz,
Bir dəfə gəlirik, yadında saxla!

Yeridir, yerində qərara gəlmək…
Demə ki, həyatın mənasız keçdi.
Hər ömrün mənası sevib, sevilmək,
Ürək alışmasa, gözəllik heçdir.

### Gəlib mən alardım sənin könlünü

Gəlib mən alardım sənin könlünü,
Yadına gəlirmi, hərdən küsəndə.
Gözlərdim yolunu hey bütün günü,
Məni istəsən də, istəməsən də.

Könlündən könlümə ocaq düşərdi,
Hərdən üşüyəndə, külək əsəndə.
Xəyalım yanında qonaq düşərdi,
Məni istəsən də, istəməsən də.

Sən öz ürəyinin yoluyla get ki,
Ya mənim, ya da ki, başqa bir kəsin
Qəlbi bahar olsun…
Sən elə et ki,
Sənin sevdiyini hamı istəsin.

### İlk görüş, ilk ayrılıq

Ürək yanar, alışar,
Meh əsər iliq-iliq,
Nə susar, nə danışar
İlk görüş, ilk ayrılıq.

İlk görüş, ilk ayrılıq
Bir vaxta necə düşüb?
Elə bil ki, bir vaxtda
Gecə, gündüz görüşüb.

Ya qismət, ya qədərdir
İlk görüş, ilk ayrılıq.
İlk sevgi, ilk kədərdir
İlk görüş, ilk ayrılıq.

### İlk sevgi dəsmalı

Həyatda çoxuna ilk sevgi sözü
Dönük məhəbbətdən yanar köz olur.
Deyirlər, bilmirəm, yalan, ya düzü
Çox vaxt ilk məhəbbət uğursuz olur.

Əhdi, məhəbbəti sınamaq üçün
Sən mənə dəsmal da bağışlamışdın.
Gəlmişdin, əbədi sən yanmaq üçün,
Bəs niyə bir anda yanıb alışdın?

Başa düşəmmirəm kimdə günah var,
Axı, kim ayırdı iki əzizi?
Görən ilk sevgimi oldu günahkar,
Yoxsa ki, bu dəsmal ayırdı bizi?

# İdman

## Sərbəst güləş üzrə yığmamız dünya çempionatında üçüncü yeri tutub



Macarıstanın paytaxtı Budapeştdə keçirilən 23 yaşadək güləşçilər arasında dünya çempionatında sərbəst güləş üzrə mübarizə başa çatıb.

Mundiala 8 idmançı ilə yollanan yığmamızın 5 üzvü fəxri kürsüyə qalxıb.

Turan Bayramov (65 kq) qızıl, Abubakr Abakarov (79 kq) və Hacımurad Məhəmmədsəidov (86 kq) gümüş, Əfqan Xaşalovla (57 kq) Davud İbrahimov (70 kq) isə bürünc medal qazanıblar. Ümumilikdə komandamızın topladığı xal 111-ə bərabər olub. Bu nəticə ilə millimiz dünya üçüncüsü olub.

Rusiya (145) birinci, İran (139) isə ikinci yeri tutub.

Qeyd edək ki, 1 qızıl, 2 gümüş və 2 bürünc medal 2017-ci ildən bu yana keçirilən analoji yarışlarda sərbəst güləş yığmamızın ən yaxşı nəticəsidir.

## Parataekvondo üzrə Azərbaycan yığması Avropa çempionatında iştirak edəcək



Parataekvondo üzrə Azərbaycan yığma komandası İtaliyada keçiriləcək Avropa çempionatında iştirak edəcək.

Qitə çempionatında ölkəmizi baş məşqçi Fərid Tağızadənin və böyük məşqçi Yaşar Səfərovun rəhbərliyi ilə Aynur Məmmədova, Röyalə Fətəliyeva, Elimxan Manafov, İmaməddin Xəlilov, Sadiq Həmidov, Əbülfəz Abuzərli, Hüseyn Həsənov və Vüqar Adışirinov təmsil edirlər.

## Akrobatika gimnastlarımız Avropa çempionatında bürünc medal qazanıblar



İsrailin Holon şəhərində keçirilən akrobatika gimnastikası üzrə Avropa çempionatı idmançılarımız üçün uğurlu başlayıb.

Gənclər yaş kateqoriyasında kişi cütlüyü tərkibində çıxış edən Murad Rəfiyev və Daniel Abbasov yarışların bürünc medalını qazanıblar. Balans hərəkətləri proqramında hakimlərdən 28 xal alaraq gimnastlarımız fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

İlk iki pillədə müvafiq olaraq Böyük Britaniya (28.750) və Rusiya (28.600) gimnastları qərarlaşıblar.

Qeyd edək ki, çempionata noyabrın 3-də yekun vurulacaq.

## Şahmatçımız Vüqar Əsədli Almaniyada beynəlxalq turnirdə liderliyə yüksəlib



Almaniyada keçirilən beynəlxalq turnirdə şahmatçımız Vüqar Əsədli liderliyə yüksəlib.

Şahmatçımız dördüncü turda turnirin əsas favoritlərindən olan hindistanlı Sethuraman Panayappan Sethuramanı məğlub edərək turnir cədvəlinin birinci pilləsində qərarlaşıb.

Beşinci turda onun rəqibi ukraynalı Vitali Bernadski olacaq.

İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarətdir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 644
Nüsxə 3950